F. Ağasıoğlu , Y. Bağırzadə

# LİDİYA KRALI KREZ AZƏRBAYCANDA



Bakı - 2011

*Firudin Ağasıoğlu, Yusif Bağırzadə*

# Lidiya kralı Krez Azərbaycanda

Bakı - 2011

Başlıqlar

Sözönü ........................................................................... 4
Giriş ............................................................................... 5
Saqalar Ön Asiyada ...............................................................12
Madada hakimiyətin perslərə keçməsi ..................................20
Lidiya kralı Krezin Kuruşla savaşı ....................................... 31
Kuruşun Tumruzla savaşı ..................................................... 39
Selevkilər çağı...................................................................... 49
Sözsonu .......................................................................... 53
Ədəbiyat ..........................................................................54

## Sözönü

Tarixin ən dəyərli bəlgələri daşlardır, üzərində yazısı olan daşlar, başqa nəsnələr üzərindəki bəlgələrdən fərqli olaraq, yazılı daşların ömürü daha uzun olur. Qayalar üzərində çizilən işarələr günümüzə qədər hələ yazının meydana çıxmadığı dönəmlərdən qalmışdır. Bunun örnəyini yaşı minilləri ötən Gəmiqaya və Qobustan qaya rəsmlərində görmək olur. Bu baxımdan, üzərində yazısı olan hər bir daşın tapılması tarixin yeni səhifəsinin açılmasına səbəb olur. Belə daşların Azərbaycanda tapılması, özəlliklə Miladdan öncəki yüzillərin ovqatını yansıtması baxımından daha çox önəm daşıyır, çünki Azərbaycan tarixinin ən qaranlıq və mübahisəli məsələləri həmin dönəmlərə aiddir.

Yusif Bağırzadənin illərlə toplayıb yığdığı tarixi nəsnələr sırasında Antik çağa aid bir neçə yazılı daş da vardır. Burada Yusif bəyin kolleksiyasında toplanmış qədim möhürlər, kiçik insan və heyvan fiqurları haqqında deyil, yalnız bir neçə yazılı daşdan söhbət açmaq istəyirik. Məqsəd isə bu daşlardakı təsvir və yazılar üzərində elmi araşdırma aparmaq deyil, burada onların yalnız görüntülərini verib uzmanlara tanıtmaqdır, oxuculara isə sadəcə, yazılı daşların hazırlandığı dövrə baxmaq üçün o cağlarda baş verən olaylarda birbaşa iştirak etmiş türk boyları (man, mad, saqa, qamər) və lidiyalılar haqqında ümumi məlumatlar verməkdir. Ona görə də, daş üzərindəki yazıda adı keçən Lidiya kralı Krez, Pers şahı Kuruş və onlarla ilgili yunan filosofu Solon, türk elbəyimi Tomiris (Tumruz), tarixi olaylar, qurulan və dağılan dövlətlər haqqındakı tarixi bəlgələrdən bəhs edilir.

İlk dəfə çap olunan buradakı yazılı daşlar üzərində araşdırma yapacaq uzmanlara başarı diləyir, alınacaq elmi nəticənin Azərbaycan tarixinə, özəlliklə, Saqa, Mada cağına və Selevkilər dönəmində yunan-türk əlaqələrinə bəlgə kimi daxil olacağını ümid edirik.

## Giriş

Azərbaycan tarixinin qədim cağları haqqında son vaxtlar aparılan tədqiqatlarda, çap olunan tarix kitablarında üç əsas konsepsiya formalaşmışdır. Bunlardan ikisi ənənəvi Altay teoriyası, biri də yeni Urmu teoriyasına əsaslanır. Əvvəlki konsepsiyaya görə, türklər Ön Asiyaya, o cümlədən Azərbaycana gəlmə etnosdur, Urmu teoriyası isə türk etnosunun Ön Asiyada avtoxton olması, prototürk dilinin burada yaranması baxışı üzərində yaranmışdır.[1] Bu kitabça da həmin baxışla yazılmışdır, çünki Azərbaycanda 2-3 minil öncə baş vermiş olayların yozumuna, Azərbaycanın antik çağ tarixinə aid bir sıra mübahisələrin çözümünə geniş imkanlar açıb Azərbaycanın gerçək tarixinə işıq tutan yeni Urmu teoriyasıdır.

Bu baxımdan, haqqında burada danışacağımız bəzi boyların, tarixi şəxslərin soykökü məsələsi çox önəmlidir. Belə ki, Herodotun təsvir etdiyi Saqa-Mada münasibətləri Dədə Qorqud hekayələrində gördüyümüz Dış Oğuz - İç Oğuz əlaqələrilə açılır, Alp Aruzun da Alpər Tunqa soyundan gəlməsi aydın olur və yaxud hər bir Azərbaycan türkünə orta məktəb illərindən bəlli olan Tomiris tarixşünasların dediyi kimi pers şahı Kuruşu Orta Asiyada deyil, Azərbaycanda yenir.

Azərbaycanda İslamaqədər, yəni burada ərəb hərflərinin işlənməsinə qədər bir sıra əlifbalardan istifadə olunması bəllidir. Bunların sırasında aramey, pəhləvi, yunan, latın və qədim türk runuk əlifbası, az da olsa, mixi yazılar da vardır. Yusif Bağırzadənin kolleksiyasında daşlardan birinin üzərində yonulan şəkil (№ 1) aydın seçilsə də, onun altındakı yazının hansı əlifba ilə yazılması aydın deyil. Lakin bu daşın digər üzündəki

[1] Urmu teoriyasının elmi əsasları ilk dəfə F. Ağasıoğlunun çoxcildli “9 Bitik” əsərində geniş şərh olunmuşdur.

yazı çox aydın görünür, burada çizilmiş şəkil (№ 2) isə o biri üzdəki şəkilə nisbətən yaxşı seçilmir.

Konturları aydın çizilən şəkildə bir gələnəksəl ritual təsvir olunmuşdur. Bu ritual törəni üçün öküzün kəsilmiş başı masanın üzərinə sərilmiş dərisinin üzərinə qoyulmuşdur. Sağ və sol tərəfdə duran iki adam da əllərindəki çaxır qədəhlərini masanın üzərinə qoymuşlar:




Təsvir olunan belə bir səhnə haqqında Lukian Samosatlının (125-190) «Toksaris və ya dostluq» adlı yazısında və Babəklə bağlı bir bəlgədə vardır. Lukian saqalarda (skitlərdə) dostluğa böyük dəyər verildiyini təsvir etmək üçün Toksarla Mnesippin söhbətini verərkən Toksar saqalarda «qardaşlaşma» gələnəyini xırdalıqlarına qədər açıqlayır və örnək üçün özünün də iştirak etdiyi bir əhvalatı danışır. Çox uzun olan bu hekayə əslində yunan dilində qələmə alınmış Oğuznamə parçalarından

biridir. Toksarın danışdığı hekayədə birinə yardım etmək istəyən saqa igidləri kəsilmiş öküz dərisi üzərində andiçmə törəni keçirirlər. Burada həm də söylənir ki, dostluğu hər şeydən üstün tutan saqalar dostluğu himayə edən iyəni *Korak* adlandırır və bunun da yunan dilinə tərcüməsi «dostluğu qoruyan tanrı» anlamı daşıyır.[2]

Eyni olayı Babək başçı seçiləndə ona qoşulan döyüşçülər təkrar edirlər, onlar da kəsilmiş öküz dərisi üzərində and içirlər. Beləliklə, hər iki halda saqa (oğuz) gələnəyi yuxarıdakı daş üzərindəki təsvirə uyğun gəlir.




---

[2] АИОСК, 1990, 137-145.

Daşın o biri üzündəki görüntünü böyüdəndə bu mənzərəni görmək olur: Sağ və sol tərəfdə əlində qılınc tutmuş iki adamın rəsmi var. Ortada isə beş bölümə ayrılmış tikinti meydanı təsvir edilmişdir. Buradakı adamların əlində tikintidə istifadə olunan alətlər, tikinti materialı var, kimi ağac daşıyır, kimi də əl arabasında daş aparır. Ən yuxarı hissədə isə iki Yarımay və onların arasında da səkkiz guşəli Günəş şəkili çəkilmişdir.

Burada yunan hərflərilə yazılmış ΦΘVΣΑ ΣΙΜΩΣ ΘVΤΙΣ (*fthusa simos thutis*) sözləri aydın oxunur. Yunan dilində *fthusa* sözünün “həlak oldu, öldü,”, *simos* sözünün “ucalan” və *thutis* sözünün “qurban” anlamı vardır. Bu halda, yazının tam anlamı həlak olub ucalana qurbanvermə törəni ilə bağlanır, lakin son söz Tutis şəxs adı da ola bilər. Bu halda isə yazı “Ölən uca Tutisə qurbanvermə” anlamı daşıyır. Hər iki halda bu yazı qurban törəni ilə bağlıdır. Lakin yazının altındakı sətirdə yunan hərflərindən fərqlənən iki-üç işarə də var ki, onlar aydın seçilmir.

Göründüyü kimi, daşın hər iki üzündə olan təsvir antik çağ ədəbiyatında saqa (massaget) adı ilə tanınan oğuzların etnoqrafik törənilə bağlıdır: bir tərəfdə öküz dərisi üzərində and mərasimi, digər tərəfdə də Günəşə tapınanların kiməsə kurqan qurması olayı təsvir olunmuşdur. Yazılar da buna işarə edir.

Yusif bəyin kolleksiyasında olan başqa bir daşın üzərində oyma rəsm (№ 3) və altında yunanca yazı vardır. Təəssüf ki, bu daşın yuxarı tərəfi qırıldığından buradakı adamın başı da görünmür. Başsız fiqurun geyimi və qabarıq döşləri onun qadın olduğunu bəlli edir. Oturmuş vəziyyətdə təsvir olunan bu xanımın hər iki tərəfində heyvan fiquru vardır ki, onlardan birinin aslan olması aydın seçilir:




Təsvir olunmuş görüntünün altında yunan hərflərilə bu sözlər yazılmışdır: ΒΑΣΙΛΕΣ ΑΝΤΙΩΘΧΑ ΚΑΤΡΙΑΝ. Bunların altında hərfə bənzəyən bir neçə solğun işarə də görünür. Oxuna bilən ikisətirlik yazıda *basiles antiothxa katrian* sözləri yazılmışdır ki, bunlar da elbəy (Basiles) titulu daşıyan Antiotxa Katrianın soy və özəl adıdır. Selevki xanədanında bəzi kraliçaların *basilissa* titulu daşımasını göstərən örnəklər vardır.[3] Əgər Antiotxa adı Selevkilərin soyadına çevrilmiş I Antioxun adı ilə bağlıdırsa, onda Katrian daşdakı xanımın adı ola bilər. Antiox Orta Asiyadan bir bəy qızı olan Apama ilə evlənmiş Selevkin oğlu idi. Analığı Stratoniklə evlənən Antiox m.ö. 281-261-də hökmdar olmuşdu.

---

[3] *Бикерман,* 1985, 28 (qeyd 161).

Nəhayət, bu kitabın yazılmasına səbəb olan yazılı daşın formasını və üzərindəki yazıları gözdən keçirəndə bəlli oldu ki, bu çox nadir bir sənət əsəridir, çünki burada bir-birilə ilişkisi olan m.ö.VI əsrin üç məşhur tarixi şəxsiyətinin adı yazılmışdır: Pers şahı II Kuruş, Lidiya kralı Krez və Yunan filosofu Solon.




Burada iki adam fiquru vardır, birisi uzanmış pozada, yalnız başı görünən digəri isə onun ayaq tərəfindədir. Şəkildə ox işarəsilə yazıların yazıldığı sahə göstərilir. Bu fiqurun aşağısında yazılmış **minela prot. sgl. xam. krzo solon. prglsig/y.** sözləri içində Minela (Minelay), Krzo (Krez), Solon adları seçilir. Yerdə qalan *prot* (birinci), *sgl.xam* (yer altında saxlama) və mənası, həm də sonluğu aydın olmayan *prglsig,* yaxud da *prglsiy* sözünü isə uzmanlar dəqiqləşdirə bilər.

Yuxarıdakı oxla göstərilən yerdə isə *kiros person* sözləri yazılmışdır, bu da çox guman ki, pers Kuruşun adıdır. Minelay yaxud *Birinci Minelay* adına isə həmin çağa aid qaynaqlarda rast gəlinmir, sonralar Selevki çağında bu adı Yerusəlimin baş kahini daşıyır.

Bizcə, yuxarıdakı üç daşdan ikisi m.ö.VI əsrə, biri (№ 3) isə m.ö. III-II əsrdə Selevkilər çağına aiddir. Əlbəttə, bu bizim ilkin ehtimalımızdır, daşların daha dəqiq tarixini isə uzmanlar müəyyən edəcəklər. Yazılarda görünən səhvlər belə qənaət yaradır ki, onların yazarları o qədər də savadlı deyilmiş. Bunu da qədim yunan yazıları üzrə uzmanlar aydınlaşdıra bilər.

Burada adı keçən Krez lidiyalı idi. Lakin *Lidiya* adı xalqın deyil, ölkənin adıdır, tarixi qaynaqlarda burada yaşayan boylar *turşa, tirse(n)* və başqa adlarla verilmişdir. Çağdaş dilçilər lidiyalıları hindavropa dilli xalqlardan (*het-luvi, het-lidi*) sayırlar.[4] Halbuki, Misir yazılarında *turşa,* Herodotda *tirsen* kimi verilən lidiyalılar hindavropalı ola bilməzdilər, çünki ən azından, tirsenlərin (sonrakı etruskların) hindavropa dilli olmaması elmə çoxdan bəllidir.[5]

Krez-Solon, Krez-Kuruş, Kuruş-Tomiris münasibətlərini açıqlamaq üçün saqa-qamər boylarının Ön Asiyaya qayıtması dönəmindən Selevkilər çağına qədər davam edən dönəmin bəzi boyutlarını gözdən keçirmək lazım gəlir. Pers şahı Kuruşla Lidiya kralı Krezin hekayəsində və hər ikisinin Tomirislə ilgili hekayəsində onların soykökü və hakimiyyətləri haqqında olan bilgilər də yararlıdır. Beləliklə, söhbətimizə dış oğuzlar saydığımız saqa boylarından başlayaq.

---

[4] *Шеворошкин,* 1967, 17.

[5] *Ağasıoğlu.* Etrusk-Türk bağı. 2011.

## SAQALAR ÖN ASİYADA

Həm qədim, həm də çağdaş tarixçilər saqa boylarının Ön Asiyadan quzey və doğu ölkələrə miqrasiyasından bəhs edirlər. Herodot yazır: «Koçəri skitlər **Asiyada** yaşayırdı. Massaqetlərlə savaşda məğlub olanda **Araz** çayını keçib, kimmerlərin yanına köç etdilər».[6]




Siciliyalı Diodor da saqalar haqqında deyir ki, əvvəllər onlar azsaylı idi və **Araz qırağında** yaşayırdılar. Ön Asiyadan saqaların doğu və quzeyə getməsini əks etdirən bu xəritəni də rus skitşünasları tərtib etmişlər: [7]

Saqaların Azaq və Qara dəniz yaxalarına getmə tarixi də artıq bir neçə əsr qədimə çəkilir. Belə ki, bu tarixi T. Sulimirski m.ö. IX əsrə aid edirsə, M. İ. Artamonov, B. N. Qrakov m.ö. II minilin son əsrlərinə aid edirlər.[8] Artıq saqa boylarının quzey və doğu yönlərə Ön Asiyadan miqrasiyası da öz həllini tapmaqdadır. N. L. Çlenova skit kulturu prototipinin Mesopotamiyanın quzeyində yarandığını söyləyir.[9]

Ön Asiyadan doğu və quzey ölkələrə vaxtilə (ən azından üç min il öncə) köçən saqa boylarının bir qismi sonralar Azərbaycana qayıtmışdı. Doğuya gedən saqalar haqqında C. Nehru belə yazmışdır:

---

[6] *Herodot,* IV. 11.

[7] *Ağasıoğlu,* 2006, 32.

[8] *Sulimirski*, 1954, 283-284; *Артаманов*, 1950, 44; *Граков,* 1971, 18-26.

[9] HAA, 1980, №5, 87.

"Sonra **saqa** axını başlandı. Onlar sayca çox idilər, Hindistanın quzey-batı bölgələrinə yayıldılır. Saqalar **türklərin** böyük köçəri boylarından idi. Onları da öz yerindən başqa bir böyük boy olan kuşanlar çıxarmışdı. Bütöv Baktriya və Parfiyanı bürüyən saqalar tədricən Pəncab, Racputan və Katxiavarda məskunlaşdılar».[10]

Quzeydən Azərbaycana qayıdan qamər (kimer) və caqa (skit) boyları da vaxtilə buradan getmiş oğuz boyları idi. Bir neçə əsr Sibirin və Rusiyanın güney çöllərində bozqır yaşamına alışan bu dış oğuzlar artıq Atayurda qayıdanda yerli türk boylarından fərqli olaraq, savaşda daha çevik və mobil toparlanma taktikası ilə seçilirdi. Bu üstünlük onlara az itgi ilə ətraf bölgə və ölkələri yağmalamaq imkanı verirdi.

Uzaq məsafələri sürətlə qət edən mahir oxçu süvarilərin bozqır savaş kulturunu Ön Asiyaya gətirən saqa-qamər boyları buradakı geosiyasi durumu dəyişdi. Frigiya, Lidiya dövlətləri dağıldı, əsrlərlə ətrafdakı xalqlara qan udduran Asur, Urartu kimi dövlətlər son illərini yaşamalı oldular. Bu olaylar Tövratda yolunu azmışları cəzalandırmaq üçün Tanrının öz ordusunu göndərməsi kimi dəyərləndirilmişdir.

VIII əsrin sonunda Azaq yaxasından qayıdan qamər boylarının bir hissəsi Azərbaycanın batı bölgələrinə və Kiçik Asiyanın quzey-doğu bölgələrində yerləşdilər. Onların ardınca VII əsrin əvvəllərində Dərbənd və Dəryal keçidlərilə Azərbaycana qayıdan saqaların bir hissəsi də Urmu-Göycə gölləri arasındakı bölgələrdə oturdu. Saqa-qamər boyları VII əsrin əvvəlində yerli soydaşları ilə burada birləşərək böyük hərbi qüvvəyə çevrilirdi.

---

[10] *Hepy,* I. 1981, 129.

Həmin əsrin sonunda isə saqa boyundan bəziləri yenidən Azaq bölgəsinə qayıtdı, m.ö. III əsrəcən Skitiya (Saqatya) adlanan bu ölkədə hun axınına qədər tarix səhnəsində qaldı.




Balkanlar üstündən yunan şəhərləri və Qara dəniz yaxalarında yunan koloniyaları ilə bağlantısı olan saqalar antik dövrün mədəniyəti ilə yaxın təmasda olmuş, burada *Abar, Toksar, Anaxars* kimi filosoflar yetişmişdir. Hətta saqa elbəyinin yunan qızından olan oğlu Anaxars antik çağın «7 müdrik» sırasında yer almışdır.[11]



Tarixdən bəllidir ki, m.ö. IV əsrdə Qara dənizin quzeyində saqa boylarını birləşdirib, qısa müddətdə ətraf bölgələri özünə tabe etdirən çar *Ata* 90 il ömür sürmüş, fateh İskəndərin atası Makedoniyalı Filiplə döyüşdə (m.ö. 339) ölmüşdür. Onun vaxtında basılan bu sikkə bulunmuşdur.

[11] Azər xalqı, 2000, 98-102.

Miladdan öncə VIII əsrin sonlarında Azaq dənizi yaxalarından qalxaraq, Güney Qafqaza və Doğu Anadoluya gəlib bəylik quran qamər boylarının izi bugünəcən *Qəmər, Qəmərli, Kəmərli* kimi toponimlərdə qalmışdır. Onların ardınca VII əsrin əvvəllərində Azərbaycana qayıdıb, burada dövlət quran, uzun müddət ətraf ölkələrin hakimiyətini rahatsız edən *saqa* (saqat) boylarının izi də Saqa, Saqat, Saqatlı (Sahatlı), Şəki kimi onlarla toponimdə görünür. Vaxtilə Ön Asiyadan, Urmu gölü hövzəsindən doğu və quzey ölkələrə köç etmiş türk boyları içindən sonralar əvvəlki Atayurda qayıdan ilk boylar da bozqır yaşamlı saqa-qamərlərdir.




Saqa-qamər boyları Qafqaz dağlarından Urmu gölünə qədər Quzey və Güney Azərbaycan arasında körpü olub, Arazın sağ və sol yaxalarını burada qurduqları dövlətin sınırları içinə almışdılar. Saqa-qamər boylarının mənşəyi məsələsi ilə yanaşı, bu boylarla əlaqədar VIII-VI əsrlərdə Azərbaycanda yaşanan olayların məntiqi nəticələri təkcə azər türklərinin deyil, başqa türk xalqlarının da tarixini yeni baxış bucağından öyrənməyə imkan açır. Bibliyada Yafəs soyundan qamər və saqa boylarının soyağacı belə verilir:

Yafet (Yafəs) oğulları: **Qomer** və Məcuc və **Maday** və
Yavan və Tubal və Meşek və **Tiras**.

Qomer oğulları: **Aşkenaz** (saqa) və Rifət və **Toqarma**.[12]

Xəzər xaqanı Yusifin (X əsr) məktubunda Toqarma oğulları da belə sıralanır: Aqiyor, Tiras, Avar, Uqin (Uquz), Biz-l, T-r-na, Xəzər, Yanur (Z-nur), Bulqar, Savir.[13]

Beləliklə, Bibliya gələnəyi Qamər və Toqarmadan törəyən *saqa, mada, tiras, xəzər, savir, bulqar* və sair türk boylarını bir-birinə qohum sayır, onları Ön Asiyada verir, həm də bu qutsal kitabda Lidiya kralı Giqesi cəzalandıran tanrı adından «**Qomer** və bütün orduları, quzeyin sonlarından **Toqarma** evi və bütün orduların» ona qarşı çağırılacağı deyilir.[14] Bibliyada adı çəkilən *tiras* boyu başqa qaynaqlarda da türk boyu kimi verilir. Görünür, vaxtilə Lidiyadan *tirsen* adı ilə İtaliyaya köçən etruskların dilində, əlifbasında görünən türk izləri də onlarla bağlıdır.




Asur sənədlərində yağı sayılan saqa-qamər çarları kimi *Teuşpa, İşpaka, Tuqdamme* və (oğlu) *Sandakşatru* adları çəkilir. Asurlar *umman-manda* ordusunun 678-də başbuğu qamər bəyi Teuşpa və manalılara yardım edən saqa

[12] Tekvin, bar.10.
[13] Kokovtsev, 2009, 89.
[14] Hezekiel, bar. 38.

bəyi İşpaka ilə (670-lərdə) vuruşub, onları əzdiklərini yazırdılar.[15] Qamərli Tuqdammeni 654-də *umman-manda* çarı adlandıran sənəddə onun oğlu Sandakşatru haqqında asur çarının bu sözləri vardır:

> «Mən Tuqdammenin qüvvəsini dağıdacağam, meydanda onu əvəz edən, onun belindən gələn oğlu **Sandakşatru** əzəcəyəm».[16]

Qamər elbəyi Tuğdamın və onun oğlu tegin Sandakşat ərin türk adı daşıdığını qeyd etmişdik. Həmin çağlarda Troya qənşərindəki Lemnos adasında savaşda şəhid olan döyüşçünün başdaşında *Aker Taqar şad* adının yazılması da diqqəti çəkir.[17] Belə ki, türk gələnəyində teginlərə verilən "şad" sanı (titulu) bu yazılı bəlgədə özəl önəm daşıyır və saqa-qamər boylarının oğuzlar olduğunu təsdiq edir.

Qımız içən saqaların oğuz boylarından olmasını göstərən bəlgələr sırasında «Dədə Qorqud» eposu da önəm daşıyır. Bu oğuz hekayələrində Dirsə xan da saqa-qamərlər kimi, «qımız sağdırır». Maraqlıdır ki, bizə çatan «Dədə Qorqud kitabı» sonralar Axıska adlanan *Aq-Saqa* türklərinin dialektində qələmə alınmışdır.[18] Yuxarıdakı xəritə-sxemlərdə saqa boyunun batı sınırı Axıska yurdunda verilir, qədim türk dilində *ağ* sözü isə «batı» anlamını bildirir. Beləliklə, *Aqsaqa* adı «batıdakı saqa» deməkdir.

Saqa elinin sosial və siyasi qurumları, tarixi coğrafiyası Dədə Qorqud boylarının federativ siyasi qurumunu, coğrafiya-

---

[15] АВИИУ, №63; №65.

[16] Дьяконов, 1956, 285.

[17] *Ağasıoğlu*. Etrusk-Türk bağı.

[18] Ak-Saka qalası (KDQ, I. 157); Bölgənin Ak-Sıka şəklində adı XIV əsrəcən qalmışdı. «Əmir Teymur Göycədən Alınca qalasına gələndən sonra, 1394-cü ilin avqustynda *Ak-sıka* bölgəsinə ordu göndərir» (Kırzıoğlu, 1992, 153).

sını əks etdirir. İç-Oğuz və Dış-Oğuz bölgüləri Azərbaycandakı oğuzlarla saqa-qamər boylarının bölgüsünü bildirir. Yerli və gəlmə boyların birlikdə «Qalın Oğuz eli» adlanması da bununla bağlı ola bilər. Hər halda, İç-Oğuz ilə Dış-Oğuz boylarının Azərbaycandakı savaşı antik yazarların qeyd etdiyi saqalarla qamərlərin və ya saqalarla Mana, Mada türklərinin savaşı idi. Bu iç savaşda Urmu gölü yaxınlığında öldürülən Alpər Tunqa da dışoğuzların başbuğu idi. Türkmənistandakı *Daşoğuz* adı onlardan qalmadır. Ola bilər ki, antik yazarların qeyd etdiyi tissaget (dişsaqat) boyları dışoğuzlar imiş.

Asur ordusunda 670-ci illərdə muzdlu qamər əskərləri görünür.[19] Bu siyasəti saqa bəylərilə də qohum olmaqla qurmaq istəyən asur çarları hər vasitəyə əl atırdılar. Qamər bəyləri kimi, saqa elbəylərinin də urartulara nisbətən, asurlarla münasibətində ziddiyət vardı. Bu boyların bəzi soyları öz bəylərilə Asura qarşı olan Mana və Mada qüvvələrinin yanında idi. Lakin Asur çarının qızı ilə evlənən nüfuzlu saqa bəyi *Partatu* və sonralar onun oğlu *Madi* asurlarla müttəfiq olub, dağılmaqda olan Asur dövlətinin ömrünü xeyli uzatdı. İ. M. Dyakonova görə, Kiçik Asiyanın batı bölgələrini tutan qamərləri də oradan bu Madi sıxışdırıb çıxarmışdı.[20] Görünür, sonralar asurlardan istədikləri vergini ala bilməyən saqalar Asur dövlətinə qarşı Babil-Mada ittifaqına qoşuldu.

Saqa-Mana (İç Oğuz - Dış Oğuz) əlaqələri dostluq və müttəfiqlik şəraitində davam edir. Asurlar 670-lərdə manalılara yardım edən saqa bəyi İşpakayı məğlub etdiklərini yazırlar.[21] Saqa bəylərilə Mada çarlarının münasibəti isə təzadlarla müşa-

---

[19] АВИИУ, №66.

[20] Дьяконов, 1956, 234.

[21] АВИИУ, №63; №65.

yiət olunur: əlaqələr gah dostluq-müttəfiqlik, gah da düşmənçiliklə davam edir. Saqaların ilk gəlişində, Herodota görə, bunların arasında savaş baş vermiş və saqalar məğlub olmuşlar. Sonra saqalar Madadan bac alaraq, onları uzun müddət dəstəkləyir, VII əsrin 30-20-ci illəri arasında isə Kiaksar qonaqlığa dəvət etdiyi saqa bəylərini öldürür və bundan sonra bəzi saqa tayfaları Qafqaz üzərindən Azaq yaxalarına qayıdır.

## MADADA HAKİMİYƏTİN PERSLƏRƏ KEÇMƏSİ

Mada imperiyasının qurulmasında saqa qüvvələrindən istifadə olunsa da, sonradan Kuruş dönəmində imperiyanın başına keçən perslər yalnız saqa qüvvəsindən istifadə etdikləri çağlarda onlara yaxşı münasibət göstərmişlər, əksər hallarda isə ən qatı düşmən mövqeyində durmuşlar. Hətta perslər nə vaxt saqa döyüşçülərinə qələbə çalmışsa, hər il həmin qələbə gününü bayram edib şənlənmiş və bunu *sakeya* adlandırmışlar. Strabon iki müxtəlif bölgədə belə *sakeya* olayını göstərir; Kappadokiyanın Zel şəhərində perslərin bir qrup saqanı qırdığı gün, bir də Kuruşun hiylə ilə qurduğu tələyə düşərək, başı içkiyə qarışan saqaların qətl olunduğu gün.

Mana elinin qürub çağında onun güney-doğu qonşuluğunda formalaşan mad boylarının siyasi birliyi m.ö.VII əsrin son rübündə artıq yeni qüvvə ilə ortaya çıxmışdı. Mada adı ilə tanınan bu dövlətin qədim Ön Asiya tarixində önəmli rolu olmuşdur.[22] Belə ki, Asur dövlətinin çökməsilə Ön Asiyada qısa müddətdə böyük imperiyaya çevrilən Mada elinin sınırları çox geniş əraziləri əhatə edirdi. Təxminən 70 il davam edən Mada elinin sonu (m.ö. 550) haqqında xeyli bəlgə olsa da, onun ilk yaranma çağları o qədər də aydın deyil, çünki həmin dövrdən bəhs edən qaynaqlar aydın bilgi vermir. Herodotun saqa-mada savaşlarına aid ziddiyətli məlumatı da bu sahədə müəyyən

---

[22] Qərb yazarları *Mediya, Midiya* kimi verdiyi ölkəadı Tövratda *Maday*, qədim farsca *Mada*, elamca *Mata* şəklində yazılmışdır. Qədim formanı altay eposu «Maday Kara» saxladığı kimi, karaimlər indi də «midiyalı» anlamında *madaylı* ifadəsini işlədirlər. Orta əsr Avropa səyahları Şirvan və Muğanı da Midiya adlandırmış (Ambrozio Kontarini, Antoni Cenkinson), Şamaxını *Midiya* dövlətinin ən gözəl şəhəri hesab etmişlər (Artur Eduards və Larens Çepmen). Doğrudur, bu, tarixi anaxronizm olsa da, hər halda qədim Mada-Azərbaycan bağının sonrakı əks-sədasıdır.

dolaşıqlıq yaratmışdır. 620-ci illərə qədər Ön Asiyanın əksər xalqlarından və dövlətlərindən vergi alan Saqa eli sonra Mana və Urartu ilə birlikdə artıq güclənməkdə olan Mada elindən asılı vəziyyətə düşdü.




Asur hegemoniyası əsrin sonuna yaxın Babil-Mada ittifaqı qarşısında tab gətirə bilməyib dağıldı. Beləliklə, VII əsr boyu davam edən olaylar fonunda öncə Mada bəyliyinin (650-620), daha sonra isə Mada elinin (620-550) yaranmasını izləmək mümkündür. Bu çağlarda ətraf ölkə və bölgələr kimi mada bölgələri də saqalara vergi verirlər. Bu illərdə saqalar ilə madalılar arasında yaxın ilişkilər qurulur. Madalı gənclər saqa hərb sənətini, özəlliklə saqalara məxsus məharətli ox atma üsullarını öyrənmək üçün Saqa elinə göndərilirdi. Beləliklə, 620-ci illərə qədər saqa bəylərinin himayəsilə qüclənən madalılar artıq müstəqil hərbi gücü olan topluma çevrilir və bu güc öncə saqa (dış oğuz) bəylərinə qarşı yönəlir. Güney Azərbaycandakı saqa elitasını qovandan sonra Mada elbəyi Kiaksar asurlara qarşı Babil çarı Nabupalasar ilə ittifaqa girir. Mada-Babil qoşunları

on il ərzində Asur torpaqlarına vaxtaşırı hücumlar edir və asurların paytaxt şəhəri Ninevi 612-də zəbt olunub dağıdılır. Nəhayət, 604-də Ön Asiyanın bu qəddar imperiyası dayaqlarını itirib tam dağılır, torpaqları Mada ilə Babil arasında bölüşdürülür.

Madanın doğusunda türkmənlərin bir qolu olan Xorasan türkləri o çağlarda saqa, saqat adı ilə Aral gölünə qədər yayılmışdı. Onların içində *baş saqat* (massaget) adlanan boyların bir qismi sonralar Abşeron-Dəvəçi arasında görünür. *Maştağa* adı onlardan qalmadır. Xorasandakı saqaların Ərsaq adlanan sülaləsi sonralar güclənib burada Part elini qurmuşdu, hələlik isə bu bölgələr Madaya tabe idi. Ksenofont perslərin sayını 120 min verir.[23] Görünür, saqa türklərindən ayrılmış *part* türkmən boyunun bir qismi Xorasanın güney-doğusundu bu çağlarda asur qaynaqlarının *aribi*, sonralar Herodotun *arizantu* adı ilə qeyd etdiyi bəzi irandilli boylarla qarışmışdı. Özəlliklə, Sakastan (Sistan) bölgəsində saqaların sonra irandilli boylara qarışıb dilini itirməsi olayı diqqəti çəkir. Belə ki, sonrakı pers folkloru və mifologiyasında görünən kəyanilər (kavi) sülaləsi, Səyavuş, Rüstəm Zal və sair qəhrəmanlar bu bölgədə ortaya çıxanlardır. M. Xorenatsi də Rüstəmi *saqa* soylu verir.

Beləliklə, Mada elinin etnik demoqrafiyasını göz önünə gətirmək üçün Həmədan bölgəsindən ətrafa baxsaq, quzeydə azər-saqa, kadusi, doğuda part, güney-doğuda irandilli aribi, güney və güney-batıda elam, pers, batıda kassi və aramey boyları görünəcəkdir. Mana elindən fərqli olaraq, Madanın etnik durumu çox qarışıq idi. Mada eli çağında irandilli miqrantların mərkəzi bölgələrə sızması burada sinkretik kulturun formalaşmasına rəvac verdi.

---

[23] Ксенефонт. *Киропедия,* I. III.15.

Herodot mad boybirliyinə daxil olan altı boyun adını çəkir: *bousai, paretakenoi, strukhates, arizantoi, boudoi, maqoi.*[24] Bu sıraya *mad* boyunun özü də əlavə olunmalıdır. Uzmanlar *midiyalı* (madalı) anlamında müxtəlif dilli qaynaqlarda *madai, made, amadai, matai, maday, medoi* formalarında işlənən *mad* etnoniminin mənşəyini tapmaqda çətinlik çəkirlər.[25] Halbuki bu boyadı Altay bölgəsində türk etnonimlərində saxlanmışdır.

Mada bölgəsində yerləşən madlar, çox güman ki, m.ö. II minilin ortalarında İkiçayarasından Orta Asiyaya köçən subar boylarından imiş. Etimoloji açımı çətin olan *budi, bus, maq* boyadlarından danışan İ. M. Dyakonov budiləri batıda, busları Həmədən bölgəsində, maqları isə Tehran civarında yerləşdirir.[26] Asur-Urartu qaynaqları Bustu//Buştu bölgəsini Mananın güneyində qeyd edir. Başqa bir Bustis bölgəsi isə Aribi tərəfdə verilir. Əgər bu toponimlərin kökündə *bus* boyadı durursa, onda busların Madanın həm batı, həm də doğu sınırlarında yaşadığını güman etmək olar. Etnonimin leksik anlamı isə dış oğuzların *boz oq* (*bozuq*) boylarına uyğun gəlir. Budi etnonimi quzey saqalarda *budin* şəklində görünür və hər iki etnonim qədim türkcə «boy», «xalq» anlamındakı *bod, budun* sözlərilə yozula bilir. Mada əhalisi içində *maq* adlı kahin tirəsi maq boylarının içindən çıxmışdır. Yəni kahinlər *maq* adlansa da, maqların hamısı kahin olmamışdır.

---

[24] Herodot, I. 101.

[25] İ. M. Dyakonov müxtəlifdilli qaynaqlardan bu formaları örnək verir: asur yazılarında - *madâi, âmadâi, matâi*; qədim perscə - *mâda*; yeni elamca - *matape;* yunanca - *mēdoi*; hayca - *mark* (Дьяконов, 1956, 149).

[26] Дьяконов,1956, 148, 152.

Pers epik əsərlərində İran-Turan qarşıdurmasının qaynağında pers və mad boylarının savaşları, bu boylara aid əyanların hakimiyət uğrunda mübarizəsi durur. Avestada *aryan* və *tur* qarşıdurması kimi verilən belə olaylardan sonrakı çağlarda İran-Turan deyimi ilə bəhs olunur və *Turan* adı İranın quzeydoğu sınırlarındakı türkləri bildirir. Əhəməni çağında ortaya çıxan mad-pers savaşlarından biri də mad böyüklərindən olan *Qam Ata* ilə bağlıdır. İran-Turan savaşının öndəri olan bu tarixi şəxsiyətin davasını «üsyan» və ya «saray çevrilişi» kimi verən və bu olayda onun rolunu geniş tədqiq və təsvir edən onlarla iranşünasın heç biri onun əsl soyunu, etnik mənsubiyətini ortaya çıxara bilən adının leksik anlamını aça bilməmişdir. Belə ki, «qəbul olunmuş konsepsiya» imkan verməmişdir ki, onun türk soyundan olub, Qam Ata adı (sanı) daşıdığını görə bilsinlər. Bəlkə də, bu tədqiqatçılar qədim türk dili və mifologiyasına bələd olsaydılar, belə «yanlışlıq» yapmazdılar.[27] Qam Ata ilə bağlı Bisutun abidəsindəki bircə cümlənin filoloji təhlilini və buradakı *maq* (maquş) və *Qam Ata* (qaumata) sözlərinin semantikasını gözdən keçirək:




[27] Mütəxəssislər Bisutun yazısında Qam Atanın adını qədim perscə *Qaumata* şəklində oxuyurlar. Lakin yuxarıdakı şəkilaltı yazıda olduğu kimi, həmin Bisutun yazısının elamca *Kamata* (Kamada) və akadca *Qumati* variantlarında, həmçinin Yustinin əski latınca verdiyi *Kometes* formasında ilk saitin diftonq olmadığı görünür. Vaxtilə König də bunu *Qomata* şəklində vermişdir (Дьяконов, 1956, 429): İlk dəfə linqvistik təhlillə bu adın «şaman ata» anlamında qədim türkcə *qam* və *ata* sözlərindən yaranmış *qamata* titulu olduğunu yazmışdım. Artıq bəzi yazarlarımız bu adı *Qaumata* yox, *Qamata* şəklində yazırlar.

I martiya maquş aha qaumata nama hauv udapatata haça paişiyahuvadaya arakadriş nama kaufa haça avadaşa viyaxanahiya mah. «*Bir adam maq, Qaumata adında Payşiyauvada Arakadriş adlı dağda Viyaxna ayında (üsyana) qalxdı*».



Bisutun yazısı və məğlub edilən üsyançılar I Dara qarşısında

522-ci il martın 11-də açıq mübarizə ilə hakimiyəti ələ alıb yenidən paytaxtı Madaya (Həmədana) köçürən Qam Ata taxta çıxdığı gündən imperiyada əmin-amanlıq yaranmışdı, amansız müharibə və çəkişmələrdən əziyət çəkən əhali yeni elbəyin fərmanı ilə üç il vergilərdən və hərbi çağrışdan azad edilmişdi. Herodot yazır ki, Qam Atanı (Smerdisi) xalq çox sevirdi, cünki xalq üçün çox iş görmüşdü, «*o öləndə **perslərdən başqa** bütöv Asiya ağlayırdı*».[28]

Asur dövləti dağılandan sonra Madaya tabe olan ölkələrin sayı artır, Madanın əraziləri böyüyür. Anadoluda Lidiya ilə Mada arasında 590-da başlanan müharibə 585-də sülh müqavi-

[28] Herodot, III. 80.

ləsilə başa çatır və indiki Qızıl-irmaq çayı bu dövlətlərin sınırı kimi qəbul edilir. 550-də Madaya qarşı çıxan perslər hakimiyəti ələ alır. Əhəməni sülaləsinə qarşı 522-də geniş xalq kütlələrinin iştirakı ilə bir neçə bölgədə üsyanlar başlayır. Qam Ata hakimiyəti geri qaytarsa da, yeddi aydan sonra onu suiqəsdlə öldürən perslər yenidən hakimiyəti ələ keçirir və başlanan yeni üsyanların qarşısı qəddarlıqla alınır.

Beləliklə, VII əsrin ortalarına yaxın asur istilasına qarşı üsyana qoşulan mad boybirlikləri az sonra mərkəzi hakimiyəti olan dövlət qurumu ilə siyasi meydana çıxır, lakin VI əsrin ortasında Mada elinin siyasi hakimiyəti perslərin əlinə keçir, Mada elinin ərazilərinə Əhəməni sülaləsinin qurduğu yeni Pers dövləti yiyələnir. Bu qısa xülasədən göründüyü kimi, Mada elində hadisələrin ümumi axarı ətraf dövlətlərdə baş verən siyasi olaylarla sıx bağlı idi. Herodot Deyokun 53 il, Phraortun (Fraortun) 22 il, Kiaksarın 40 il, Astiaqın isə 30 il hakimiyətdə olduğunu qeyd edir. Ktesi isə tamam fərqli tarixlər göstərir.[29]

Kiaksar öncə Pars bölgəsini tutur, 620-lərdə Mada torpaqlarında at oynadan saqaları qovur, Asura qarşı Babil çarı Nabupalasarla müttəfiq olur. Nabupalasarla müqavilə bağla-yan Kiaksar qızını və ya nəvəsini (Astiaqın qızını) onun oğlu ilə evləndirir. Babildəki «Asma bağlar» da bu qızın şərəfinə salınmışdır. Mada elinin sınırlarını Anadoluda Qızıl-irmağa qədər uzadan Kiaksar Lidiya dövləti ilə barış müqaviləsi bağlayır və oğlu Astiaq Lidiya çarı Aliattın qızı Arieni ilə evlənir. Beləliklə, Asur dövlətinin dağılmasında tarixi rolu olan Kiaksar 585-dən ölənə qədər Pars, Part, Mana, Urartu, Saqa, Qamər kimi bir çox dövlətləri, bəylikləri Mada elindən asılı ölkə və bölgələrə çevirə bilmişdi.

---

[29] Дьяконов, 1956, 26-27.

Göründüyü kimi, oğlu Astiaqa böyük dövlət adamı olan Kiaksardan o çağlarda Ön Asiyanın ən böyük imperiyası olan Mada eli miras qalmışdı. Lakin 25 ilə yaxın bu imperiyanın başında duran Astiaq layiqli bir varis hazırlamadı. Pars bölgəbəyinə verdiyi qızından doğulan nəvəsi Kuruş onu devirib hakimiyyəti ələ aldı və Mada elinin yerində perslərin Əhəməni (Haxamaniş) sülaləsinin yeni Pers dövləti yarandı.[30]



Mada bəyləri

Beləliklə, Pars bölgəsinə gəlib yerləşən aryan boylarının bir neçə nəsildən sonra Haxamaniş, Çişpiş və I Kuruşla başlanan bölgə bəyliyini Mada elbəyi Astiaqın nəvəsi və pers əyanı Kambizin oğlu olan II Kuruş böyük Pers imperiyasına çevirdi.[31] Əhəməni çağında İran şahları Quzey Azərbaycan torpaqlarını da əldə etmək üçün bura yürüşlər təşkil etmişlər. Bu haqda Azərbaycan tarixçiləri belə yazır:

[30] Ksenofont isə başqa bir versiya verir. Ona görə, Astiaq qızı Mandananı pers bölgəbəyi Kambisə vermiş, bu izdivacdan Kuruş doğulmuşdur. Astiaqın oğlu Kiaksar da qızını bacısı oğlu olan bu Kuruşa verib, belə deyir: «Cehiz kimi bütün Madanı sənə verirəm, çünki oğlum - varisim yoxdur» (Ксенофонт. VIII. V. 19); Asur qaynağı isə Kuruşu perslərin yerləşdiyi Ançanın çarı kimi verir (Дьяконов, 1956, 415).

[31] Əhəməni şahlarnın sırası belədir: II Kuruş (550-529), I Kambiz (529-522), I Dara (522-486), I Kserks (486-465), Artakserks (465-425), II Dara (424-405), II Artakserks (404-359), III Artakserks (358-338), Arses (337-336), III Dara (336-330).

«Pomponi Mela, Böyük Plini, Dion Kassi və başqalarının yazılarından aydınlaşır ki, massagetlərin ölkəsi Dərbəndlə Gilgilçay arasındakı torpaqlarda yerləşirdi. Beləliklə, II Kuruş massagetləri ram etməklə Alban torpaqlarına yiyələnmək istəmişdir. Onun bu istəyi baş tutmadı. Tomrisin başçılıq etdiyi ikinci döyüşdə İran ordusu darmadağın edildi, Kuruş döyüşdə öldürüldü. Arazdan quzeydəki torpaqları işğal etməyə yönələn ilk Əhəmani yürüşü boşa çıxdı».[32]

Bisutunda Şişpapaqlı Saqa



Güney Qafqazın batı bölgələrində isə durum başqa idi, vaxtilə burada Madaya, sonralarsa perslərə tabe olan satraplıqlar vardı.[33] Qam Atadan hakimiyəti geri alan Daranın Bisutun qayasında həmin olayı əks etdirən yazısı var.

Makedoniyalı İskəndərə məğlub olana qədər Əhəmani sülaləsinin idarə etdiyi Pers dövlətinin milli siyasəti İranda yerli boyların assimilyasiyasına yönəlmişdi. Lakin öncəki Mana ərazisi bu çağda Mada satrapiyası daxilində olduğu üçün Mada adlansa da, burada irandilli mad boyları deyil, türkdilli madlar yaşayırdı. Pers dövləti dağılandan sonra Atropatena (Kiçik Mada) kimi tanınan həmin ərazidə At-

[32] AT, 1996, 75.

[33] Q. A. Melikişvilinin qeyd etdiyi kimi, hələ Mana eli çağında Güney Qafqazın batı bölgələrində yaşayan boylarla manalıların əlaqəsi vardı. Mada eli çağında isə Madadan asılı olan bu bölgələr Əhəmanilərə miras qalmış 13, 18 və 19-cu satraplıqlar idi.

ropat *Azərbiqan* adlı dövləti qurdu ki, bu da *Azərbaycan* adının ilkin yaranma forması idi.[34]

**Kuruş.** Mada dövlətinin m.ö. 549-da çökməsinə səbəb olan Kuruş perslərin pasarqad boyunun əhəməni (Haxamaniş) soyundan idi. Rusca *Kir*, yunanca *Kyros*, perscə *Kuruş* adlanan bu pers şahı Mada dövlətinə tabe olan bögələrdə hakimiyyətini möhkəmlətmək üçün 20 il qonşu ölkələrlə müharibə etdi. Öncə 546-da batıya yürüş edib Kiçik Asiyadakı Lidia dövləti və kiçik yunan şıhər-dövlətləri üzərində qələbə çaldı, sonra 545-539 illər arasında doğuda Parfiyanı zəbt etdi, 538-də isə qonşu Babilistanı tutdu, lakin 530-da Azərbaycanda massagetlərlə savaşda öldürüldü. Böyük Kuruş və ya II Kuruş adlanan bu pers şahı haqqında bir çox qədim tarixçi və yazıçıların əsərlərində, özəlliklə Ksenefontun "Kiropediya" kitabında xeyli məlumat vardır.



II Kuruş Pasarqad relyefində

Kuruşun hakimiyyətə gəlməsinə qədərki yaşamı haqqında müxtəlif əfsanələr söylənib yazılsa da, Herodotun qələmə aldığı daha yayğın hekayənin qısa özəti belədir:

Mada elbəyi Astiyaq (*İştuvequ*) qızı Mandana ilə bağlı yuxusunda gördüyü olayı kahinlər belə yozur ki, qızının doğacağı uşaq hakimiyyəti onun əlindən alacaq. Ona görə də, qızını

[34] Herodotun verdiyi bəlgəyə görə mad boylarının yalnız bir qismi irandilli idi. İ. Əliyev yanlış olaraq, hellin çağında madların əksərini irandilli saysa da, Azərbiqanda o çağın etnik özəlliyi haqında yazır: «Heç bir şübhə yoxdur ki, gəlmə irandillilərə, yaxud yerli boylara aid mədəniyyətlərdən hansının üstün olmasından asılı olmayaraq, Atropaten çarlığında siyasi hakimiyyət, aparıcı etnokultur element madlara məxsus idi» (Алиев, 1989, 61).

Kambiz (*Kambuciya*) adlı bir pers bölgəbəyinə ərə verir ki, ondan olan evladın hakimiyətə iddiası ola bilməsin. Lakin ikinci dəfə gördüyü yuxudan sonra artıq hamilə olan Mandananı gətirdib yanında saxlayır. Uşaq doğulanda Astiyaq güvəndiyi qohumu Harpaqı (*Ərbəg*) çağırıb onun öldürülməsinə göstəriş verir və Harpaq da bu işi Mitridat adlı çobana həvalə edir. Lakin çobanla "köpək" adlanan arvadı Spaka (*Səbək*) bu qərara gəlirlər ki, uşağı öldürməsinlər, özlərinin yenicə ölü doğulmuş uşağın əvəzinə saxlasınlar.[35] Beləliklə, pers Kambizin oğlu Kuruş adı ilə on yaşına qədər bu çobanın evində böyüyür.

Herodotun yazdığına görə, on il sonra Astiyaq öyrənir ki, torunu sağdır və onu öldürməkdən vaz keçir, lakin vaxtında əmrini yerinə yetirməyən Harpaqa ağır cəza kəsir, onun yeniyetmə oğlunu doğradıb ətini özünə yedirdir. Bu dəhşətli cəzaya təmkinlə dözən Harpaq intiqam üçün Kuruşun böyüməsini gözləyir.

Nəhayət, Mada elinə qarşı m.ö. 553-də başlanan perslərin üsyanına Kuruş başçılıq edirdi. Babası Astiyaqa qarşı savaşan Kuruşa Harpaq yardım edir, Mada əyanlarını da Astiyaqa qarşı qaldırırdı. Bir neçə il davam edən savaş 550-də Kuruşun qələbəsilə nəticələndi.[36] Beləliklə, Mada eli dağıldı, imperiyanın əraziləri Kuruşun təmsil olunduğu Əhəməni sülaləsinin əlinə keçdi və o dönəmdə kiçik bölgədə oturan perslər bu hakimiyəti 220 il əllərində saxlaya bildi.

---

[35] Əslində, bir persin Herodota söylədiyi bu hekayə oğuzların "dişi qurd" əfsanəsinin perslәşmiş variantıdır və burada qurd köpəklə əvəz olunmuşdur.

[36] Mada elbəyi Astiyaqa qarşı persləri qaldıran Kuruşun bu savaşından bəhs edən tarixçi Plutarx yazır ki, savaşda məğlub olub geri qayıdan perslərin arvadları şəhər dışına çıxıb donlarını göbəkdən yuxarı qaldıraraq belə deyirmişlər: "Hara qaçırsınız, qayıdıb çıxdığınız yerəmi girəcəksiniz?". Belə qınaq onları yenidən döyüş meydanına qaytarır və bu dəfə perslər qalib gəlirlər (Плутарх, 1990, 266).

## LİDİYA KRALI KREZİN KURUŞLA SAVAŞI

Het dövləti dağılandan sonra Anadoluda bir sıra kiçik krallıqlar (bəyliklər) ortaya çıxmışdı. Bunlardan biri də yarımadanın batısında yaranan və Asur yazılarında *Ludu* kimi anılan Lidiya bəyliyi idi. Çağdaş Manisa və Uşaq bölgələrini əhatə edən Lidiya quzeydə Misiya, doğuda Frigiya, güneydə Kariya, batıda İoniya bəylikləri ilə əhatə olunmuşdu. Lidiya Roma imperiyasının tərkibinə girənə qədər adını saxlamışdı.




Çeşidli bitgi örtüyü ilə zəngin olan Lidiya torpağı meşəli dağları və otlu örüşlərilə heyvançılıq, atçılıq üçün, geniş vadilər taxılçılıq üçün yararlı idi. Başkənd Sardın içindən keçən Pak-

tolos çayı da özülə bura qızıl tozu gətirir. Belə doğal zənginlik Lidiya elinin bacarıqlı elbəylərinin də qüdrətli olmasına nədən olmuşdur.

Bəzi tarixçilərə görə, Lidiyada üç elbəy soyu hakimiyətdə olmuşdur. Tilonid və ya Atyanid (Ata) adlanan ilk xanədanın elbəyləri haqqında bilgi qaynağı olmasa da, sonrakı Heraklid və Mermnad soylarına aid antik çağ yazarları müəyyən bilgi vermişlər. Güya lidiyalıların soydaşları sayılan qonşu Kariya ölkəsinin adı əfsanəvi elbəyləri Kara adından yarandığı kimi, lidiyalıların adı da ilk elbəylərindən olan Lid adından ortaya çıxmışdır. Əlbəttə, bu ehtimal xalq etimologiyasına əsaslanır.

Lidiya elbəylərindən bəzilərinin hakimiyət illəri bəllidir: Kandavl (717 - 700), Gige (680 - 645), Krez (560 - 546). Lidiyanın ən parlaq dövrü m.ö. 700-550 illəri arasında Mermnadlar xanədanı dönəmində olmuşdur. İnkişaf əsasən Mermnadların ilk elbəyi Gige ilə başlanmış, ondan sonra Lidiyada Ard, Sadiatt, Aliatt ve Krez elbəylik etmişlər.


Lidiyanın başkəndi Sard

Herodot yazır ki, Gige (*Giges*) Milet, Smirna və Kolofon üzərinə yürüşlər edirdi. Məhz onu cəzalandırmaq üçün üzərinə Tanrının saqa-qamər ordularını göndərməsi yəhudi kahinlərin Bibliyadakı duasında əks olunmuşdur. Qamər bəyliyi VII əsrdə Ön Asiyada baş verən tarixi dəyişikliklərdə önəm daşımışdır. Atlı orduları ilə seçilən qamərlər o dönəmdə Kiçik Asiyada qüdrətli Frigiya dövlətini təxminən 675-də darmadağın etmiş, 655-645-ci illər arasında Efes və Sardı yağmalamışdı. Yalnız bu əsrin sonunda

Lidiya elbəyi Aliattla döyüşdə məğlub olandan sonra Qamər bəyliyi zəifləyib Mada elinin əyalətinə çevrildi.




Mada elinin batı sınırını Anadoluda *Halis* çayına (Qızıl-irmaq) çatdıran Kiaksar m.ö.585-də burada lidiyalılarla müharibə edir. May ayının 28-də Günəşin tutulması nədənilə bu savaş Aliattla Kiaksar arasında barışla nəticələnir və Halis çayı Mada ilə Lidiya dövlətlərinin sınırı kimi qəbul olunur. Böyüməkdə olan Lidiyanın yönətimini devr alan Krez onun sınırlarını daha da böyütdü.



Lidiya qızıl pulu, (m.ö.VI)

Sard şəhərindən axan çaydan bulunan gümüş-qızıl qarışığı elektron külçəsindən basılan ilk sikkələrin üzərində Lidya krallığının simgəsi olan aslan başı vardı.




Promptuarii Iconum Insigniorum
(*Guillaume Rouille,* 1553)

Stater adlanan ilk Lidya sikkələri Aliatt dönəmində basılsa da, elektron yerinə gümüş və qızıldan ayrıca sikkə basımının daha gəlişmiş durumu elbəy Krez çağında gerçəkləşmişdir. Beləliklə, ilk pulun ortaya çıxması tarixi lidiyalılar ilə bağlıdır.

Sonralar pulun müxtəlif ölkələrdə dövrəyə girməsilə zaman-zaman Krezin adı xatırlanmış, onunla bağlı olayları ünlü rəssamlar yağlı boya ilə kətana çəkmiş, bəzi sikkələr üzərində onun rəsmi çizilmişdir. Hətta, qazax türkləri bağımsızlığını qazanandan sonra Qazaxstan Milli Bankı Krezin rəsmilə 100 tengə altun sikkə basmışdır.




Kazaxstan, 100 tengə

Krezin var-dövləti haqqında antik çağda yaranan əfsanələr orta əsrlərdə də davam etmişdir. Onun yatırı aldığı vergilər və tabeliyində olan ölkələrdən topladığı bac-xəracla dolmaqda idi. Bu durum məşhur rəssamların əsərlərində də əks olunmuşdur.



Krez kəndlilərdən vergi alır. (*Klaude Vignon*, 1629)

Antik çağ tarixçiləri Krezlə filosofların, özəlliklə Solonla görüşündən bəhs etmişlər. Tarixdə islahatçı bilgə (filosof) kimi və məşhur deyimlərilə tanınan Solon (Σόλων) m.ö. 559-da ölmüşdür. Krezin hakimiyyət illəri isə m.ö. 560-546 illər arasında olmuşdur.[37] Plutarxın yazmasına görə, 10 il Afinadan ayrılan Solon öncə Misirə gedir, bir müddət burada yaşayır və yerli kahinlərdən Atlantida haqqında bilgi alır, sonra Kıprısa gedir, Krezin dəvəti ilə Sarda gəlir və buradan da Afinaya qayıdır.



Solonla Krezin görüşü. (*Gerrit van Honthorst,* 1624)

[37] Olsun ki, Krez Solonla görüşməmişdir, çünki Solonun 10 illik səfəri təxminən 594-584-cü illər arasında olmuşdur, bu çağda isə Krez hələ kral deyildi. Lakin antik çağ yazarlarının uydurduğu hekayələr çox vaxt həqiqət kimi qəbul olunur. Maraqlı uydurma isə daha geniş yayıldığından zaman keçdikcə ona gerçəklik donu geydirilir. Hər halda, bizim məqsədimiz belə bir görüşün gerçəkliyi deyil, onu gerçək qəbul edənlərin çəkdiyi rəsmlər, Solonla Krezin "görüşü" ilə bağlı sonrakı yozumlar, təsviri sənət əsərləridir.

Lidiya elində saqa filosofu Anaxarsa olan böyük hörmət Siciliyalı Diodorun «Kitabxana» əsərində açıq verilir. Yazar Lidiya elbəyi Krezə qonaq gedən müdriklərdən Biantın, Solonun, Pittakın və Anaxarsın söhbətlərini «Anaxars Krezin yanında» başlığı altında verir və göstərir ki, qonaqlıqda Krez ilk müraciəti müdriklərin yaşlısı (ağsaqqalı) Anaxarsa edir. Belə bir görüşün olub-olmadığını qəti söyləmək olmur. Lakin Krezin ayrılıqda Solonla görüşməsi haqqında söhbətlər geniş yayılmışdır. Deyilənə görə, topladığı var-dövləti ilə öyünən Krez filosofdan soruşur ki, öləri insanlar arasında bu qədər zənginliyə sahib olanı xoşbəxt saymamaq olarmı? Solonsa ona cavab verir ki, "heç kimi ölümündən öncə xoşbəxt saymaq olmaz."

Bu görüş haqqında saqa bilgəsi Anaxarsın da söylədiyi fikir maraqlıdır. Plutarxın yazdığına görə, müdriklər arasında "yaxşı ev" mövzusunda söhbət başlayanda Ezopun arabada yaşayan saqaların bilgəsi Anaxarsa yönəlik atmacasına saqa bilgəsi cavab verir ki, Ezop, sən gil, torpaq və ağac yığınını ev sayırsan, ancaq onun içindəkinin durumunu, önəmini gözardı edirsən, ona görə Solona gülürdün ki, Krezin əzəmətli sarayını görsə də, içəridəki yaşamı dəyərləndirmədən ona "xoşbəxtsən" deməmişdi.

Herodotun yazdığına görə, vaxtilə Manesin oğlu Atisin krallığı dönəmində Lidiyada quraqlıq nədənilə aclıq olmuş və onun oğlu Tirsenin başçılığı ilə lidiyalıların bir bölümü artıq tirsen adı ilə İtaliyaya köçmüşdür.[38] Həmin tirsenlər İtaliyada Etrusk uyqarlığını yaradıb, Poma dövlətinin özülünü qurmuşlar.

---

[38] Herodot, I. 94.

Lidiya dili haqqında uzmanların yekdil fikri olmasa da, lidiyalıların istifadə etdiyi yazının etrusk və qədim türk əlifbası ilə eyni mənşəli olması quşqu doğurmur. Bunu Lidiya əlifbasında işlənən həflərə adi baxışla da görmək olur:



Yunanlarla olan ticarət əlaqələri Lidiya toplumuna Artimu (Artemis) kimi teonimi tanıtsa da, burada daha cox yerli tanrı adları işlənmişdir. Lidiyada Dionisin qarşılığı kimi əkinçilik tanrısı Baki teonimi vardı, yağmur tanrısı Leus, məzarları qoruyan tanrı isə Santas adlanırdı. Türkcədə məzar daşına *sıntaş* deyilməsi və türklərə yad olmayan *Bakı* adı Lidiyada işlənmiş teonimlərə marağı artırır.

Lidiyanın sonuncu kralı olan Krez yaxın bölgələri işğal etməyə çalışan babalarının istəyini gerçəkləşdirə bilmişdi. Belə ki, öncə Efesi, sonra ionların, eolilərin torpaqlarını zəbt edib ölkəsinin sınırlarını böyütmüşdü. Halis çayından batıda kilikiyalılar və likiyalılardan başqa hamı Krezə vergi ödəyirdi. Qazandığı uğurlar onu başqa bölgələri də işğal etməyə həvəsləndirmişdi. Əslində, 546-da Lidiya-Pers savaşı bu nədənlə başlamışdı.

Krez vaxtilə Mada ilə Lidiya arasında qalmış Kilikiyaya hücum etdi və bəzi bölgələri tutdu. Lakin az sonra burada Kuruşun sayca çox olan qoşunu ilə qarşılaşanda geri çəkilməli oldu. Onu təqib edən Kuruşun ordusu başkənd Sarda yaxınlaşdı və buradakı düzənlikdə qarşılaşan ordular arasında böyük savaş başlandı. Savaşda yenilən lidiyalıların sağ qalanları Sard qalasına sığındılar. Lakin pers qoşunu bu qalanın gizli yolunu tapıb Sard şəhərinə girə bildilər. Əsir alınan Krezlə Kuruşun buradakı görüşü haqqında müxtəlif fikirlər olsa da, hər halda

onun sonrakı taleyilə bağlı Herodotun verdiyi bilgi başqa qaynaqlarda da təkrar olunur.

Krezin atası Aliatt vaxtilə qızı Arienisi Mada elbəyi Kiaksarın oğlu Astiaqa vermişdi. Kuruş ana babası sayılsa da, Astiaqın əlindən hakimiyəti savaşla aldığından Krez öz qohumunu müdafiə etmək bəhanəsilə müharibəyə başlamaq qərarına gəlir. Bu qərarın qəbul olunmasında orakuldan gələn falaçmanın da yanlış yozumunun etkisi olmuşdu. Bunları söyləyən Herodot daha sonra əlavə edir ki, Kuruş Krezin yandırılmasını əmr edir.

Krezin bağlandığı yeri alov bürüyəndə o üç dəfə "Solon" deyə, qışqırır. Bunu eşidən Kuruş onun nə demək istədiyini öyrənmək üçün yanına gətirdib sorğulayır. Krez də Solonun ona "ölümündən öncə heç kim xoşbəxt sayılmaz" dediyini və bu sözlərin gerçək anlamının düşdüyü indiki durumda anladığını söyləyir. Bunu eşidən Kuruş Krezi azad edir və özü ilə Persiyaya aparır, yanında müşavir kimi saxlayır.[39]

Beləliklə, perslərin qələbəsilə başa çatan bu Pers-Lidiya savaşından sonra Lidiya dövlətinin sonu oldu və Pers imperiyasının bir əyaləyinə çevrildi, Mada elinin dağılmasında perslərə kömək edən madalı Harpaq da buraya canişin təyin edildi. Kuruş əsir aldığı Krezlə Persiyaya qayıdıb massagetlərə qarşı müharibəyə hazırlaşdı.

[39] Herodot, I. 73-89.

## KURUŞUN TUMRUZLA SAVAŞI

Tarixi qaynaqlarda Kuruşun ölümü ilə bağlı əsasən Herodotun yazdığı variant daha geniş yayılmış və qəbul olunmuşdur. Bu baxışa görə Kuruş massagetlərin hökmdarı Tomris xanımla savaşda öldürülmüşdür. Bəzi tarixçilər Massaget elini bu olayla bağlı Orta Asiyada yerləşdirirlər, çünki Herodotun burada qeyd eydiyi Araz çayının Amudərya olduğunu güman edirlər. Belə baxışa qapı açan məsələlərdən biri də həmin çağlarda massaget boylarının Orta Asiyada da yaşaması ilə bağlıdır. Doğrudur, o dönəmdə massagetlər Orta Asiyada vardı, ancaq massaget boyları təkcə orada deyil, Xəzərin hər iki tərəfində yaşayırdılar. Bu məsələlərə aydınlıq gətirmək üçün Herodotun hansı Arazdan danışmasına və massagetlərin kimliyinə baxmaq lazım gəlir.

**Araz**. Azərbaycanın əsas çaylarından birinin adı olan bu hidronim hələ qədim çağlardan tarixçilərin diqqətini çəkmiş, onun etimologiyası və coğrafi koordinatları üzərində böyük mübahisələr aparılmışdır. Arazın coğrafi ölçüləri qədim Alban, Ərmən, Atropaten sınırlarının, saqa boylarının ilkin Atayurdu probleminin düzgün yozumu üçün böyük önəm daşıyır. Azər xalqının tarixi coğrafiyası Arazla sıx bağlı olduğu kimi, onun gerçək tarixi-coğrafi koordinatları prototürk etnosunun ilkin yurd probleminə də işıq tutur. Öncə qeyd edək ki, müxtəlif bölgələrdə ona rast gəlmək olur. Araz adı teonim, etnonim və toponim kimi də işlənmişdir:

> Urartu panteonunda *Araza*, asur-urartu yazılarında Urmu gölündən yuxarıda qədim zəngi boylarının Sanqibut bölgəsindəki *araz* apelyativi ilə yaranan xeyli yer-yurd adı və *Arazu* şəhəri, Həmədan tərəfdə verilən *Araziaş* şəhər-qalası, Boğazköy mətnlərində *Arazaştiya,* Arazın orta axarında *Araksena* ovalığı, çayın sağ yaxasında *Arasbaran*, sol yaxası Ağrı vadisində müasir *Arazdəyən* topo-

nimləri; Qazax boy-soy adları sırasında *oraz* etnonimi, *kokan* və *jaybasar* (çaybasar) boyunda *oraz* uruğu və bu uruğun *tobış-oraz*, *oraz-keldi* soyu, etruskların özlərini *aras* (ras-ena) adlandırması, Türkmən elində *Araz-qöl*, Dağıstanda *Araks* toponimi vardır.[40]

Müxtəlif Araz çayları olduğu üçün bəzi qaynaqlar bunları dolaşıq salır, bəzən də qaynaqda informasiyanın qısa olması sonrakı şərhçilərin səhv fikir söyləməsinə səbəb olur. Əsas Araz çayı haqqında m.ö.VI əsrdən üzübəri Hekatey, Herodot, Strabon, Ptolemey, Plutarx və başqa yazarların məlumatı diqqəti çəkir. Bu bəlgələrdə ortaq fikir budur ki, Ərmən ölkəsindən başlanan Araz çayı *Azər* ölkəsindən (Strabon, XI. 14. 3) keçir, doğuya axıb *Araksena* bölgəsini arxada qoyur və sonra Kürə qoşulub, Kaspiyə tökülür və ya Kürə qoşulmadan bu dənizə ayrıca tökülür. Lakin qaynaqlar Orta Asiyadan Yunan elinə qədər bir neçə Araz hidronimi qeyd edir ki, bunlar da Sır-Dəryanın qolu (*Arıs*), Uzboy, Qızıl-üzən, Persopoldan axan bir çay və İtil (Volqa) ilə eyniləşdirilir.[41] Teymur Məmmədov «Azərbaycan tarixindən qoparılmış səhifələr» (1998) adlı dəyərli silsilə məqaləsində Arazla bağlı xeyli dəqiqləşmə aparmışdır. S. Vəliyevə görə, tarix boyu Xəzərin səviyəsi bir neçə dəfə enəndə Araz Kürdən ayrılıb birbaşa Xəzərə axmışdır, son dəfə 1896-da təkrarlanan bu olayın qarşısı süni yolla alınmışdır.[42]

Araz hidronimi haqqında məlumatı iki ayrı-ayrı mənbədən alan Herodot əsas Arazın coğrafi durumunu düzgün versə də, başqa bir yerdə Arazı Qızıl-üzənlə dolaşıq salır. Doğu Ana-

---

[40] ИНСК, 224; Övliya Çələbinin Şəki yaxınlığında qeyd etdiyi *Araş* qalası, Türküstanın Altın dağlarının güneyində *Araş* dağı *aras* sözü ilə bağlıdırsa, Arazı etnohidronim saymaq olar, lakin Arazyaxası toponimika Arazı tanrıadı kimi təqdim edir (Арутюнян, 359); Yardımlıda *Arus* (Əris) kəndinin adı da diqqəti çəkir.

[41] Акопян ,1987,76; Велиев, 1983, 132-138; Sümər, 58;

[42] Велиев, 1983, 132-138.

dolu (sasper və kolx boylarının əraziləri) ilə Xəzər arası hissədə Asiya qitəsinin quzey sınırı Araz çayı olduğunu deyən Herodot burada əsas Arazın coğrafi durumunu verir, lakin Xəzərin batısındakı massaget boyları və Tomirisdən danışarkən Qızıl-üzən ilə əsl Arazı dolaşıq salır və yazır ki, Araz da Qind (Diala) çayı kimi qaynağını Matien dağlarından alıb, maneəsiz keçib Kaspiyə tökülür.[43] Herodotun Qızıl-üzənlə Arazı dolaşıq salması Strabonun da diqqətini çəkmişdir. O yazır ki, «Herodotun bu məlumatı tamam yanlışdır».[44]




Araz çayı haqqında qaynaqların düzgün qavranılması olduqca vacib məsələdir, çünki coğrafi durumdan asılı olaraq, bir çox protoazər uruq və boylarının, özəlliklə, saqa-qamər boylarının «ilkin yurd» məsələsi həmin coğrafi durumla aydınlaşa bilir. Araz hidroniminin türk dilinə aid olması da bəllidir, *araz* sözü azər və digər türklərdə antroponim, etnonim, oronim və hidronim kimi işlənmişdir.

Əsas Arazın coğrafi durumu üzərində Strabon və Plutarx dövründən başlanıb hələ də davam edən mübahisəyə vaxtilə qoşulan Adam Oleari Şamaxı, Muğan, Gilan bölgələrində olarkən bu ərazilər, özəlliklə, Kur-Araz hidronimləri üzrə gedən mübahisələrə aydınlıq gətirmək amacı ilə mövcud durumu təsvir edəndən sonra yazmışdır: «Burada göründüyü kimi, qədim yazarlar bu yerlər və çayların durumu haqqında böyük səhvlər buraxmışlar».[45]

---

43 Herodot, IV. 40 və I. 202.

44 Страбон, 500; Lakin Qızıl-üzənə yaxın toponimlərin tərkibində «araz» sözü vardı.

45 ПОА, 288.

Araz adının etimologiyası haqqında müxtəlif fikirlər söylənsə də, hələlik bunların heç biri inandırıcı deyil, burada həmin fikirləri təkrar etməyə lüzum görmədik. Bu hidronimin *araz* etnonimindən, yoxsa etnonimin Araz çayadından yaranması ayrıca tədqiq olunmalı mövzudur. Ancaq bir məsələni vurğulamaq gərəkir, o da Araz çayı ilə bağlı *Arasbar tərlanı* adlı dastan, xalq deyimi *Xan Araz*, musiqidə *Arazbarı* kimi ifadələr qədim folklor motivlərinin reliktləridir.[46]

Bu baxımdan, Abşeronda *Aras-kut* göladı *araz* sözünün qədimdə qutsal iyələrdən birinin adı ola bilməsi ehtimalını ortaya qoyur, çünki Xızır peyğəmbəri görmək üçün Musa peyğəmbərin Arazla Kürün qovuşduğu yerə gəlməsi qədim miflərdə əksini tapmış və İbn Xordadbeh (IX əsr) Ulu Tanrının «iki dənizin (çayın) qovuşuğu» dediyi qutsal yerin Kür-Araz qovuşuğu olduğunu yazmışdır.[47]

Bu qısa məlumatlardan da bəlli olur ki, Herodotun massagetlərlə bağlı adını çəkdiyi Araz çayadının hansı çayı bildirməsini dəqiqləşdirmək vacibdir. Bu baxımdan, "Araz da Qind (Diala) çayı kimi qaynağını Matien dağlarından alıb, maneəsiz keçib Kaspiyə tökülür" - deyən Herodot təbii ki, Qızıl-üzən çayını nəzərdə tutur, çünki Azərbaycanda Matien dağlarından Kaspiyə axan Qızıl-üzən çayıdır. Deməli, Kuruş bu çayın ötəsindəki massagetlərlə savaşda ölmüşdür.

---

[46] ЕАМТИЛ, 67; E. M. Murzayev də qırğızca *Arasan* hidroniminin müalicəvi «qutsal axarsu» anlamı bildirdiyini yazır (OK, 15).

[47] Ибн Хордадбех, 136;

Mağara surəsi. 60: *[Ya Məhəmməd!] Yadına sal ki, bir zaman Musa öz gənc dostuna [xidmətində olan Yuşə ibn Nuna] belə demişdi: «Mən [Xızırla görüşmək üçün] iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolanmayınca [bu səfərdən] geri dönməyəcəyəm»* («QURAN». B. 1992, 270. Z. Bünyadov və V. Məmmədəliyevin tərcüməsi). Ərəb dilində dəniz və böyük çay *bəhr* sözü ilə verildiyi üçün tərcümədə «iki dəniz» əvəzinə «iki çay» ifadəsi yazılmalı idi.

Əvvəla, Herodotun təsvir etdiyi hər iki Araz, yazara görə, Kaspı dənizinə axır. Amu-dərya isə Sır-dərya kimi Aral gölünə tökülür. Kaspiyə doğudan axan Uzboy çayı isə Kuruş-Tumruz savaşından min illər öncə qurumuşdu. Xəritəyə baxan hər kəs bu gerçəyi görə bilər və Herodotun Tomrisdən danışarkən Araz çayının arxasındakı massagetlərdən bəhs etdiyini açıq-aydın görmək olur.




Herodotun verdiyi bəlgə qısa olsa da, Azərbaycanda iki çayı (Araz və Qızıl-üzən) *Araz* adı ilə verməsi bəllidir. Lakin burada saqaların *Araz* qırağından Azaq yaxasına ilkin köçü ilə vaxtilə doğuya getmiş Orta Asiyadakı saqaların Azaq yaxasına sonrakı köçü birləşdirilib. Siciliyalı Diodor da onların Araz yaxasından quzeyə miqrasiyasını qeyd etmişdir.[48] Hər iki halda, *saqa* (skit) boylarının əvvəllər Araz yaxasında yaşadığı deyilir və onların Azaq yaxalarına getmə xalq olması faktı vurğulanır. Ona görə də bu köçün Xəzərin quzey yaxası ilə və ya güneyindən keçən yol ilə gerçəkləşməsi məsələsisə ayrıca tədqiq olunmalıdır. **Araz yaxası** deyimini Asiyada saqa boylarının

[48] Antik çağ yazarlarına saqalar (skitlər) bəlli idi. Homer saqalardan deyil, qamərlərdən (kimmer) «at sağanlar» kimi bəhs edir, Hesiod isə (m.ö.VIII) sikitlərin adını çəkir. Herodot qeyd edir ki, Aristey skitlər haqqında üç əsr öncə yazmışdır (Herodot, IV.13-14).

ilkin yurdu kimi başqa yazarların da qeydləri vardır. Hər halda Xəzərin doğu yaxasında yaşayan massagetlər üzərinə getmək istəyən Kuruş hansısa çayı keçməli deyildi, çünki belə bir çay orada yoxdur. Halbuki, Araz çayından keçmək üçün Kuruşun gəmilərdən körpü düzəltmək planı vardı.

**Tumruz**. Herodotun massaqet boylarının qadın hökmdarı kimi verdiyi Tomiris xatunun adı *Tomruz* və *Tumruz* şəklində bugünəcən Azərbaycanda işlənməkdədir. Yazara görə, Tumruz xatun massaget elbəyinin xanımı idi, elbəy öləndən sonra onu əvəz edirdi. Türk dövlət gələnəyində bunun başqa örnəkləri də vardır. Bunun üçün heç uzağa getmək lazım deyil, elə massagetlərin yaşadığı Azərbaycanın quzey bölgəsində min il sonra da eyni olay təkrar olunmuşdur. Buradakı subar başbuğu Balaq öləndən sonra onu «*kişi kimi təpərli və ağıllı*» xanımı Buğarıq xatun əvəz edir. Bu xatunun 100 minlik ordusu vardı.[49]




Görünür, hələ Mana-Mada çağında Atayurda qayıdan saqaların bir hissəsi (massagetlər) Xəzər boyu Dədbənd-Muğan arasında oturmuşdular. Burada Saqa elinin bir əyalətini təşkil edən massagetlər Saqa eli dağılandan sonra bir az quzeyə çəkilib bəylik qurmuşdular. Sonrakı Alban eli çağında Maskut adlanan bu bəylikdə Bakı-Dərbənd arasındakı yollara nəzarət edən və vaxtilə massaget adlanan boylardan qalanlar məskunlaşmışdı. İndiki Maştağa kəndinin

[49] Moravcik, 1983, ЫЫ. 85, 108, 114, 292-293.

adı da (masqat > mastaq) massagetlərdən qalmadır. Massaget adı, əslində, başsaqat (*massaqat*) boyadının yunan-latın qaynaqlarındakı təhrif olunmuş formasıdır, necə ki, dış saqatlar də *tissagetlər* kimi qələmə alınırdı. Massaqetlərin bir qolu da sonralar mesxet (*meseqet*) adlanırdı ki, onlar da Axıska-Tiflis arasında oturmuşdular. Bunlar saqaların batı qolu olduğundan *aq saqa* (axıska), yəni batıdakı saqalar kimi tanınırdılar və KDQ-da bu bölgə elə Aqsaqa adlanır. Göründüyü kimi, m.ö.VII əsrdə Saqa eli çağında Azərbaycanda massaget boyları ayrı-ayrı bölgələrə yayılmışdılar. Təbii ki, belə durum sonrakı yüzildə Mada eli çağında da davam etmişdir. Tumruz xatun Madada hakimiyətin perslərə keçdiyi çağda Azərbaycandakı massagetlərin hökmdarı idi.

Kuruş elçi göndərib onunla evlənmək istədiyini bildirir, ancaq təklifi rədd edən Tumruz xatun bilir ki, Kuruşun məqsədi massagetlərin ölkəsini ələ keçirməkdir. Bu hiylənin baş tutmadığını görən Kuruş hücuma keçmək üçün Araz üzərindən keçməyə hazırlaşır.

Tumruz Kuruşa xəbər göndərir ki, əgər sən massagetlərlə savaşmaq istəyirsənsə, biz döyüşçülərimizi çaydan üç günlük məsafəyə geri çəkərik, körpü qurmağı saxlayıb, rahatca bu tərəfə keç, əgər savaş üçün bizi öz torpağına buraxmaq istəyirsənsə, işinə davam et. Bu müraciətdən sonra Kuruş pers əyanlarını yanına çağırıb məsləhət istəyir. Onlar da məsləhət görür ki, Tumruzun ordusunu bu tayda gözləmək daha yaxşı olar. Bu fikrə qarşı çıxan Krez isə o tərəfə keçməyi təklif edir və massagetlərə necə tələ qurmağı Kuruşa anladır. Bu planı bəyənən pers şahı oğlu Kambizlə Krezi geri göndərir və oğluna Krezi himayə etməyi tapşırır.

Qoşunla birlikdə Araz çayını keçən Kuruş Krezin dediyi üsulla massaget döyüşçülərinin kiçik bir dəstəsini tələyə salır. Zəif bir qurbanlıq dəstəsini düşərgədə qoyub, özü geri çəkilir. Massagetlərin kiçik bir qrupu Tumruz xatunun oğlu Sparqapis (*Subarqapis*) bəyin başçılığı ilə düşərgəyə hücum edib, persləri qırır. Krezin planına uyğun perslərin düşərgədə qoyduğu çaxırdan içib, qələbəni qeyd edən massaqetlər sərxoş olub burada yatırlar. Onlar yuxuda ikən perslərin hücumuna məruz qalırlar, bəziləri şəhid, bəziləri əsir düşür. Sparqapis də əsirlərin içində idi.

Oğlunun massaget döyüşçülərilə birlikdə pers hiyləgərliyi ilə qurulan tuzağa düşməsini öyrənən Tumruz xatun Kuruşa bu xəbəri göndərir: "Ey qana doymaz Kuruş! Öz hünərinlə öyünmə! Siz perslər üzüm suyundan məst olub hədyanlar danışarsınız. Elə həmin zəhrimarla da mənim oğlumun qoşununa qalib gəlibsiz. Əgər hiylə ilə qələbə çalmasaydınız, şərəfli döyüşdə silah gücünə heç nə edə bilməzdiniz. Massaget döyüşçülərinin üçdə birini yenəndən sonra xoşluqla mənim məsləhətimə qulaq as, oğlumu qaytar və necə gəlmisənsə, eləcə də sağ-salamat çıx get. Əgər bunu etməsən, bütün massagetlərin tapındığı qutsal Günəşə and olsun ki, qana doymayan adam, mən doğrudan da səni qan canağında boğaram."

Kuruş isə bu sözlərə əhəmiyət vermədi. Çaxırın təsirindən dumanlanan başı ayılanda düşdüyü vəziyəti anlayan Sparqapis əllərinin çözülməsini Kuruşdan xahiş edir, əli açılanda yanındakı persin xəncərini alıb özünü öldürür, çünki bu türk teginінin qüruru düşmənə əsir düşməyi qəbul edə bilməzdi.

Bu olaydan xəbər tutan Tumruz xatun Kuruşun ordusuna qarşı hücuma keçir. Herodotun yazdığına görə, massagetlərin bu savaşı düşmənə qarşı keçirdiyi ən böyük və ən qanlı döyüş

idi. Savaş başlayanda düşmən qoşunları üz-üzə dayanıb bir-birini uzaqdan oxa tutdular. Sonra nizə və xəncərlə əlbəyaxa döyüşə keçdilər. Heç biri geri çəkilmək istəmir, döyüş uzanırdı. Nəhayət, massagetlər pers ordusunu yendilər və perslərin çoxu bu savaşda həlak oldu. Kuruş da öldürüldü.

Kuruşun cəsədini tapmağı tapşıran Tumruz xatun əmr edir ki, çaxır tuluğunu da qanla doldursunlar. Kuruşun meyidini tapıb gətirirlər. Tumruz xatun onun başını kəsib qanla dolu tuluğun içinə soxur və tarixə ibrət dərsi olan bu deyimini söyləyir: "Sən hiyləgərliklə mənim oğlumu tutdun, onu əlimdən aldın. Mən demişdim, sənə qan içirdəcəyəm. İndi nə qədər istəyirsən, iç bu insan qanından."

Bu tarixi olayı belə təsvir edən Herodot yazır: “Kuruşun necə öldürülməsi haqqında çox hekayə danışırlar. Ancaq mən daha doğrusunu anlattım”.[50]

Azərbaycan türklərinin soykökündə duran onlarla türk boylarından biri də dış oğuzlardan sayılan massagetlər idi və yuxarıda deyildiyi kimi, onlar Xəzərin həm doğu, həm də batı yaxalarında yaşayırdılar. Tumruz xatun azər türklərinin ən çox sevilən qadın hökmdarı idi. Tomirislə bağlı bu əfsanənin Qafqazda geniş yayılmasını N.Y.Marr, L.S.Tolstova da qeyd etmişlər. Belə ki, hekayələrin birində pers şahının Gürcüstan



*P. P. Rubensin çəkdiyi* **Tomris əfsanəsi** *əsəri. Kuruşun kəsilmiş başı qanla dolu qaba qoyulur*

kraliçası Tamaraya elçi düşməsi deyilir və istəyinə nail olmayan şahın müharibə etməsi, kraliçanın



Tomris Kuruşun başını qan dolu tuluğa salır. (Aleksandr Zikin çəkdiyi qravür)

---

[50] Herodot, I. 214.

oğlunu hiylə ilə öldürməsi, savaşda özünün də ölməsi, Tamaranın onun başını nizəyə taxdırıb qələbə törənində nümayiş etdirməsi söylənir. Göründüyü kimi, bu gürcü əfsanəsində kraliça Tamara eynən Tumruz xatuna bənzədilmişdir.



ΒΑΣΙΛΕΣ . ΑΝΤΙΩΘΧΑ . ΚΑΤΡΙΑΝ

Beləliklə, yazılı daş fiqurda adı keçən pers kralı Kuruş və Lidiya kralı Krezin həyatı ilə bağlı tarixi olayları, onun Solonla olan (və ya uydurulan) görüş haqqındakı deyimləri gözdən keçirmiş olduq. Tarixi bəlgələrə görə hər üç şəxsin m.ö. VI əsrdə yaşaması bu daş fiqurun da həmin çağa aid olmasını mümkün saymağa imkan verir.

## SELEVKİLƏR ÇAĞI

Nəzərdən keçirilən yazılı daşların üzərindəki yazılar onların m.ö. VI əsrdə baş verən olaylarda adı keçən tarixi şəxslərlə ilgili olduğundan daşların da həmin əsrə aid olduğunu güman etmək olar. Ancaq bu daşlardan biri m.ö. III-I əsrə aid ola bilər, çünki buradakı *Antiotxa* adı Selevki xanədanında ən yayğın olan *Antiox* adına yaxındır. Bu daşdakı qabartma qadın fiquru olduğundan *Katrian* adını da *Katerina* qadın adının yanlış yazılışı kimi qəbul etmək olar. Selevki xanədanında bəzi kraliçaların *basilissa* titulu daşıması da bəllidir.

Antik çağın ən qüdrətli cahangiri olub, bir çox xalqların mifik-epik qəhrəmanına çevrilən Makedoniyalı İskəndər Misirdən Hindistana, Orta Asiyaya qədər böyük ərazini az müddətdə işğal etmiş, ellinizmin bu ərazilərə təsir etmə imkanı yaranmış-

dır. Lakin İskəndər öləndən sonra bu nəhəng imperiya Misir, Suriya və Makedoniya kimi üç böyük dövlətə parçalandı. Hakimiyəti Suriyada Selevkilər, Misirdə isə Ptolemeylər sülaləsi yürütdü. Selevkilərdən çar III Antiox Roma ordusuna məğlub olandan sonra Selevk dövləti parçalandı və getdikcə doğu bölgələr Part, batı bölgələr Roma imperiyasının nüfuzu altına düşdü. Suriyada son Selevki bölgəsi də onların əlindən m.ö. 63-də çıxdı.

Doğrudur, İskəndər Azərbaycanda olmamışdı, lakin yunan tacir və sənətkarlarının Azərbaycana yolunu açmışdı. Ondan sonra Selevkin göstərişilə m.ö. 283-də Patrokl Xəzər dənizinin coğrafi durumunu öyrənməyə başlamışdı. Bərdədə m.ö. II əsrə aid selevki pulları (tetradraxma) tapılması, bir-iki əsr sonraya aid yunan əlifbası ilə olan yazının Şəkidə bulunması yunan-azər əlaqələrinin göstərgəsidir. Selevki dönəmində yunanlar doğu ölkələrlə həmişə əlaqədə olmuşlar. Bizans çağı qaynaqları bu yöndə türklərin tarixi üçün əvəzsiz bəlgələr verir.[51] Bu baxımdan, üzərində BASİLES ANTİOTXA KATRİAN sözləri yazılmış daş fiqurun da Azərbaycanda tapılması normal haldır, necə ki, AYLIOS 10 ASON sözlərilə başlanan yazılı daş Şəkidə tapılmışdır:

---

[51] İskəndər və Selevkilər çağında yunan-makedon əskərlərinə ayrılan torpaqda onların yerlilərlə qarışması görünür. Olsun ki, vaxtilə Muğan-Xəzər arasında olmuş *Yunan-şəhər* də o çağlarda yunan koloniyası imiş. Vaxtilə pers çarının Xəzərin güneyindən Anadoluya köçürüb, sonralar Lidiyada *Hirkan-çuxuru* adlanan bölgədə yerləşdirdiyi hirkanlılarla burada oturan makedonialı əsgərlərinin qovuşması buranın «makedon-hirkan polisi» adlanmasına səbəb olmuşdur. Görünür, bu cür qarışıq yaşayanlara «qatılmış» anlamında *qatıq* (katık) demişlər (Бикерман, 1985, 95-98).



Yunan əlifbası ilə yazı
Dəhnə kəndi (Şəki)

Suriya krallarının soybabası sayılan Selevkin adı onların xanədan adına çevrilsə də, onun oğlu, m.ö. 281-261-də hökmdar olmuş I Antioxun adı xanədan yönəticiləri arasında daha çox yayılmış və bu adı bir çox kral daşımışdır. İndi Britaniya muzeyində saxlanan bu heykəl də Antioxlardan birinin Herakl ilə görüşünü əks etdirir. Haqqında danışdığımız yazılı daşın Mada canişini Molonu 220-də zərərsizləşdirən, 212-də isə partlarla savaşda “böyük” ləqəbini alan III Böyük Antioxla bir bağı ola bilməsi mümkündür.







I Selevkin evləndiyi Apama bəyim Orta Asiyadan idi, onların oğlu Antiox atasının o biri arvadı Stratonikə vurulmuş və analığına olan məhəbbəti onu xəstələndirib yatağa salmışdı. Bunu öyrənən saray həkimi olayı Antioxun atasına söyləyir, o da oğlunun Stratoniklə

evlənməsinə razılıq verir. Sonralar bu hadisə bir neçə məşhur rəssamın çəkdiyi şəkilin mövzusu olmuşdur:

Yazıda adı keçən Katrianın xristian camiyəsində Katerina, Yekaterina, Katrina şəklində yayğın olan qutsal Katerinanın adı ilə bağlıdırsa, onda yazılı daşın yaşı bir neçə əsr sonraya çəkilməsi gərəkir. Belə ki, Katerina adı III əsrdən sonra geniş yayılmışdır. Lakin bu çağlarda Antiox adı artıq dəbdən düşmüşdü. Yəni yazıdakı adlardan Antiotxa yazılı daşın tarixini Selevki çağına, Katrian isə Poma-Bizans çağına aparır.

Xristian dini ədəbiyatında yayğın əfsanəyə görə, 294-də Aleksandriyada doğulmuş Katerina həm gözəl, həm də oxumuş ağıllı bir qız imiş. Tanrıya qəlbən bağlı olan bu qız xristianlığı təbliğ etdiyi üçün ağır işgəncə ilə öldürüləndə möcüzəli şəkildə



qeyb olur. Bu olaydan üç yüz il sonra monaxlar onun cəsədini Sinay dağında



tapırlar və buradakı monastra qutsal Katerinanın adını verirlər.

Bu monastrın bir özəlliyi də İslam peyğəmbəri həzrət Muhəmmədlə bağlıdır. Belə ki rəvayətə görə gəncliyində burada qonaqlanıb ağırlandığından Katerina monastırının qorunması üçün 635-də yazılı göstəriş vermişdir. Katerina monastırını bugün də ziyarət edənlərin sayı çoxdur. Qutsal Katerinanın 1505-də ağacdan yonma bu nadir alman heykəli hətta son illərdə keçirilən bir auksona 4-6 milyon dollar dəyərilə çıxarılmışdı.

**SÖZSONU**

Krezin 530-da pers-massaget savaşında Kuruşa məsləhət verməsi və Kuruşun oğlu Kambizlə İrana qayıtması bəllidir və ola bilər ki, Kambiz şahlıq edəndə (529-522) Krez onun da



müşaviri idi. Lakin Qam Ata ilə bağlı 522-dəki olaylarda onun adı keçmir, I Dariuş (522-486) dönəmində də xatırlanmır. Ona görə də, düşünmək olar ki, artıq 522-də Krez həyatda yox idi. Bu nədənlə üç tarixi şəxsiyətin adı keçən daş fiqurun m.ö. VI əsrin sonlarında hazırlandığını ilkin versiya kimi irəli sürmək olar.

Hər iki tərəfində rəsm və yazı olan daşın tarixi də həmin çağa aid ola bilər. Daşın bir üzündəki yazı (№ 1) o dönəmdə Ön Asiyanın müxtəlif bölgələrində geniş işlənən aramey əlifbasına bənzəsə də, hələlik bunu qəti söyləmək mümkün deyil:



Üzərində *basiles antiotxa katrian* sözləri yazılmış (№ 3) daşın isə daha sonrakı əsrlərdə hazırlanması ehtimal olunur. Beləliklə, Azərbaycanda tapılmış hər üç daşın hazırlana biləcəyi tarixlər haqqında müəyyən bəlgələri gözdən keçirib, bəzi ehtimallarda bulunduq, yozumlar verdik. Lakin bunlar hələlik ilkin ehtimallardır. Gerçəyini isə uzmanlar söyləyəcək.

## Ədəbiyat


*Алиев И.* Очерк истории Атропатены. Б. 1989

*Артамонов М. И.* К вопросу о происхождении скифов. ВДИ, №2, 1950

*Акопян А. А.* Албания - Алуанк в греко-латинских и древнеармянских источниках. Ереван, 1987

*Бикерман Э.* Государство Селевкидов. М. 1985

*Велиев С.* Древний, древний Азербайджан. Б.1983

*Геродот.* История в девяти книгах. Л.1972

*Гракав Б. Н.* Скифы. М. 1971

*Дюмезиль Ж.* Скифы и нарты. М. 1990

*Дьяконов И. М.* История Мидии. М.-Л. 1956

*Закиев М. З.* Этногенез и основные вехи развития булгаро-татар в контексте «Запад-Восток». «Очерки по истории татарской культуры», Казань, 2001

*Ксенофонт.* Киропедия. М. 1976

*Ксенофонт.* Анабасис. Греческая история. М. 2003

*Ибн Хордадбех.* Книга путей и стран. Б.1986

*Неру Дж.* Взгляд на всемирную историю. 1 т. М.1981

*Плутарх.* Избранные жизнеописания. Ы-ЫЫ тт. М.1987

*Плутарх.* Застольные беседы. М. 1990

*Страбон.* География в 17 книгах. М.1994

*Струве В. В.* Этюды по истории Северного Причерноморья, Кавказа и Средней Азии. Л. 1968
*Шеворошкин В. В.* Лидийский язык. М. 1967
*Ağasıoğlu F.* Azər xalqı. B. 2000 (III basqı 2005)
*Ağasıoğlu F.* Türk elləri. Saqa-qamər boyları. B. 2006
*Ağasıoğlu F.* Doqquz Bitik (əlyazma)
*Candar A.* Kimmerler. «Ülkü» dergisi, şubat, 1935
*Durmuş İ.* İskitler (Sakalar). Ankara, 1993
*Moravcsik G.* Bizantinoturcica. I-II. Berlin, 1983
*Herodotos.* Herodot tarihi (çeviren *Muntekim Ökmen*). İstanbul,1983
*Kırzıoğlu M. F.* Yukarı-Kür ve Çoruk boylarında kıpçaklar. Ankara,1992
*Kokovtsev P.* X əsr Yəhudi-Xəzər yazışması. (Tərcümə edən *V.Zifəroğlu*). B. 2009
*Sulimirski T.* Scythian Antiquies in Westen Asia. «Artibus Asiae», vol.17, №3-4, Askona,1954
*Sulimirski T.* The Gimmerian problem. «Bul.İnst.Archeol.Univ.», №2, London, 1959
*Sümer F.* Safavi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. Ankara,1976
*Sümer F.* Selcuqlu tarihinde igdişler. TDA, №35, 1985

## Qısaltmalar

| | |
|---|---|
| АВИИУ | - *Дьяконов И.М.* Ассиро - Вавилонские источники по истории Урарту. ВДИ, №2-3, 1951 |
| АИОСК | - Античные источники о Северном Кавказе.(Сост. *В.Аталиков)*. Нальчик, 1990 |
| AT 1994 | - Àzərbaycan tarixi. Ən qədim zamanlardan XX əsrədək, I c. (red. *Z.Bünyadov, Y.Yusifov*). Á. 1994. |
| AT 1996 | - Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. (red. S. Əliyarov). B. 1996 |
| EAMTİL | - Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti (*Budaqov B.E., Qeybullayev Q.*). B.1998 |
| ИНСК | - История нородов Северного Кавказа с древнейших времен до конца XVIII в. М.1988 |
| КДГ | - Китаби Дядя Горгуд (*Араслы Щ.*) Б.1938; 1962; (*Ерэин М.*) Ы-ЫЫ ъ. Анкара |
| НАА | - Народы Азии и Африки |
| ОК | - Ономастика Кавказа. Махачкала, 1976 |
| ПОА | - Путешественники об Азербайджане. I т. Б. 1961 |